# AZƏRBAYCAN DÖVLƏTİNİN KİTABXANA SİYASƏTİNİN QANUNVERİCİLİK TƏMİNATI SİSTEMİ

**Natiq MÜRSƏLOV**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı*
Magistrant_bdu@mail.ru

***Система законодательного обеспечения библиотечной политики Азербайджанского государства***
***Резюме:*** *В статье освещены цели и задачи государственной политики в области формирования библиотечно-информационной работы в Азербайджане в период независимости. Подчеркивается, что политика государства в этом направлении в конечном итоге обеспечит укрепление духовного и социально-экономического развития нации. Особое значение придается роли Гейдара Алиева в развитии библиотечного дела в стране.*
***Legislative support system in the policy of the library of Azerbaijan state***
***Abstract:*** *The article was illuminated Heydar Aliyev's activity in the formation of state policy in the field of library-information independent Azerbaijan. At the same time, the goals and objectives of the state policy in this area is described. İn particular Heydar Alıyev role in the development of the library work has been analyzed.*

***Açar sözlər:*** *kitabxana işi, kitabxana fondları, dövlət siyasəti, qanun.*
***Ключевые слова:*** *библиотечная деятельность, библиотечные фонды, государственная политика, закон.*
***Keywords:*** *library activities, library fund, public policy, law.*

**Giriş.**

Davamlı inkişaf modeli seçən hər bir ölkə də, o cümlədən Azərbaycanda informasiya və biliklər cəmiyyəti quruculuğunda kitabxanaların üzərinə böyük vəzifələr düşür. Kitabxanalar əhalinin bütün təbəqələrinə informasiya xidməti göstərən ənənəvi və etibarlı sosial institutdur.

**Məsələnin qoyuluşu.**

Müstəqil Azərbaycan Respublikasında ümumi dövlət siyasətinin mühüm istiqamətlərindən biri də əhaliyə yüksək səviyyədə kitabxana-informasiya xidmətinin təşkili və bu sahənin hüquqi bazasının formalaşdırılmasından ibarətdir.

Azərbaycan dövlətinin kitabxana siyasətinin qanunvericilik təminatı problemindən bəhs edərkən vurğulanmalıdır ki, müstəqil Azərbaycan Respublikası ümumbəşəri dəyərləri prioritet qəbul edərək, demokratik, dünyəvi və hüquqi dövlət qurmaq yolunu seçmişdir. Həmin yol həm ölkənin dünya birliyinə sivil inteqrasiyasının, həm də həyat fəaliyyətinin bütün sahələrinin normal işləməsinin



başlıca şərti olan qanunun aliliyinin təsdiqi və ona riayət olunması prinsipini nəzərdə tutur.

Cəmiyyətimiz bütövlükdə mədəni həyatın və ayrı-ayrılıqda onun hər bir mərhələsinin - mədəni dəyərlərin yaradılması, qorunub saxlanması, yayılması və mənimsənilməsi (qəbul edilməsi) proseslərinin tənzimlənməsində komanda - sərəncamçılıq metodlarının yolverilməzliyi barədə razılığa nail olmuşdur [4, S.80]. O, kitabxana fəaliyyətinin müxtəlif növ - maddi, maliyyə, kadr və informasiya resurslarından istifadə etməklə və yalnız diqqətlə düşünülmüş, yaxşı hazırlanmış və müasir tələblərə cavab verən qanunvericilik vasitəsilə idarə olunmasını qəbul etmişdir. Bu səbəbdən, kitabxana siyasətinin həyata keçirilməsinin ən əsas vasitələrindən biri olan hüquqi cəhətdən mükəmməl qanunların hazırlanması, qəbul edilməsi və tətbiq olunması müstəsna əhəmiyyət kəsb edir. Eyni zamanda, informasiya sahəsinin əsas bazası kimi kitabxana, müasir hüququn tam subyekti olduğundan ölkədə kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, onun elmi əsaslarını, maliyyələşdirmə mənbələrini, kitabxana-informasiya müəssisələrindən istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, bu sahədə beynəlxalq əməkdaşlığın mühüm prinsiplərini və s. məsələləri tənzimləyən hüquqi sənədlərdən səmərəli istifadə edilməsi dövlət kitabxana siyasətinin həyata keçirilməsində olduqca vacib şərtlərindən biridir.

**Məsələnin həlli yolları.**

Hüququn aliliyi kitabxana-informasiya sahəsinin inkişafı istiqamətində dövlət siyasətinin başlıca amilidir [5, S.13].

Azərbaycanda dövlət kitabxana siyasətinin qanunvericilik təminatı sistemini aşağıdakı hüquqi sənədlər və mənbələr təşkil edir:

- Azərbaycan Respublikasının Konstitusiyası;
- "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu (1998);
- "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (1998);
- "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu (1999);
- Kitabxana işinə dair Nazirlər Kabinetinin qərar və sərəncamları;
- Kitabxana işinə dair dövlət standartları;
- Müvafiq icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilmiş normativ sənədlər (qərarlar, əmrlər, sərəncamlar, əsasnamələr və s.);
- Metodik mərkəzlər tərəfindən tərtib edilmiş sənədlər;
- Kitabxanadaxili sərəncamlar, əsasnamələr, digər normativ sənədlər;
- Beynəlxalq kitabxana təşkilatlarının qərarları, manifestləri, bəyannamələri və proqram sənədləri;
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr. Bu müqavilələrlə ölkənin hüquqi sənədləri arasında ziddiyyət olduqda həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Azərbaycanda dövlət kitabxana siyasətinin qanunvericilik təminatı sisteminin əsas mənbəyini Azərbaycan Respublikasının Konstitusiyası təşkil edir.

Belə ki, ölkəmizdə 1995-ci ildə qəbul edilmiş konstitusiyada kitabxanalar xüsusi olaraq vurğulanmasa da, oradakı bir sıra maddələr öz mahiyyətinə görə milli mədəniyyətimizə, dolayısı ilə də kitabxanalarımıza şamil edilmişdir.

Konstitusiyanın *"hər kəsin mədəni təsisatlardan istifadə etmək hüququ"* (maddə 40) adlı bəndi kitabxanaların mədəniyyət ocağı olması, milli-mədəni dəyərləri təbliğ etməsi, yayması kimi ictimai vəzifəsi ilə bağlıdır. Eləcə də, konstitusiyanın digər bir əhəmiyyətli *"hər kəsin təhsil almaq hüququ vardır"* (maddə 42) bəndi isə kitabxanaların bilik və təhsil prosesinə yardım etmək funksiyası ilə bağlıdır. Belə ki, qədim zamanlardan indiyədək təhsil sistemi daim kitabxana işi ilə sıx bağlı olmuşdur. Hazırda Azərbaycanda fəaliyyət göstərən kitabxanaların əksər hissəsi məhz təhsil müəssisələrinin, ilk növbədə ümumtəhsil məktəblərinin kitabxanalarıdır və onların əsas vəzifəsi təhsil prosesinin informasiya təminatıdır.

Konstitusiyanın *"hər kəsin qanuni yolla istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı vardır"* (maddə 50) bəndinə uyğun olaraq isə, insanların istədiyi məlumatı (informasiyanı) axtarmaq, əldə etmək hüququ təsbit edilmişdir ki, bu da kitabxanaların ilk növbədə insanların sənəd şəklində olan informasiyadan müvəqqəti olaraq istifadəsini təşkil edən müəssisə olmaları ilə bağlıdır.

Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə kitabxana-informasiya işinin təşkili və idarə olunmasının demokratik prinsiplərə əsaslanmasının əsas və ilkin hüquqi bazasını təşkil edir.

1998-ci ilin aprelində qəbul olunmuş 9 fəsil, 51 maddədən ibarət olan *"Mədəniyyət haqqında"* Azərbaycan Respublikasının Qanunu dövlət kitabxana siyasətinin qanunvericilik təminatı sisteminin əsasını təşkil edən mühüm hüquqi sənədlərdən biridir. Bütövlükdə mədəniyyət sahəsini tənzimləyən qanunda, hər şeydən öncə, dövlət siyasətinin prinsipləri, məqsədləri və vəzifələri ifadə olunmuş, mədəniyyət sahəsində mərkəzi (dövlət) və yerli (bələdiyyələr) icra hakimiyyəti orqanlarının səlahiyyətləri müəyyən edilmişdir. Bu qanunla hər bir şəxsin yaradıcılıq hüquqları və azadlıqları, beynəlxalq əlaqələrin və əməkdaşlığın inkişafı, habelə mədəniyyət sahəsində dövlətin antiinhisar siyasəti, milli özünəməxsusluğun, o cümlədən həm Azərbaycan xalqının, həm də tarixən Azərbaycan Respublikasında yaşayan etnik qrupların mədəni irsinin qorunub saxlanması, təbliği və inkişaf etdirilməsi, mədəniyyət fəaliyyətilə məşğul olan ictimai birliklərin və təşkilatların yaradılması imkanları təmin olunur.

Qanunda kitabxanalar dövlət mədəniyyət təsisatlarının tərkib hissəsi kimi birinci yerdə, Azərbaycan Respublikası dövlət mədəniyyət sistemi siyahısında isə ikinci yerdə verilmişdir. Qanun Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət siyasətinin əsas prinsiplərini, vətəndaşların hüquq və azadlıqlarını, milli mədəniyyət sərvəti obyektlərinin qorunub saxlanmasının və inkişafının, mədəniyyət sisteminin demokratik əsaslarla təşkili və idarə olunmasının, mədəniyyət sahəsində fəaliyyətin hüquqi əsaslarını və beynəlxalq əlaqə formalarını müəyyən edir [2, S.2]



Əhalinin mədəniyyət xidmətləri ilə minimum təmin olunması adlanan 16-cı maddədə deyilir: "Müvafiq icra hakimiyyəti orqanı əhalinin mədəniyyət xidmətləri ilə minimum təmin olunması üçün dövlət mədəniyyət təsisatları (kitabxana, muzey, kinoteatr, teatr, sərgi və konsert salonları, musiqi və incəsənət məktəbləri) normalarını müəyyən edir". Dövlət Mədəniyyət sisteminə dövlətin mülkiyyətində olan aşağıdakı təsisatlar daxildir:

1. Teatr-konsert müəssisələri.
2. Kitabxana müəssisələri:

- Milli kitabxanalar;
- Kütləvi, gənclər, uşaq, korlar, şəhər, rayon, kənd, qəsəbə kitabxanaları və onların filialları, mərkəzləşdirilmiş kitabxana sistemləri;
- Sahəvi kitabxanalar, elmi kitabxanalar və s.

*"Mədəniyyət haqqında"* qanunda kitabxanaların mədəniyyət təsisatlarının və sisteminin tərkib hissəsi kimi verilməsi təbii və qanunauyğundur. Məhz kitabxanaların tarixən formalaşmış sosial funksiyalarının əsasını onun mədəniyyət funksiyası təşkil edir. Təsadüfi deyildir ki, görkəmli mədəniyyət, elm və dövlət xadimləri daim kitabxanaları ümumi mədəniyyətin əsas göstəricisi hesab etmişlər. Baxmayaraq ki, kitabxanalar hazırda təkcə mədəniyyətin göstəricisi deyil, onlarda olan informasiya ehtiyatları eyni zamanda iqtisadiyyatın və siyasətin əsasıdır.

Məlumdur ki, informasiya cəmiyyətinə keçid zamanı ictimai həyatın bütün sahələrində informasiyaya diqqət artır. Bu diqqət informasiya ilə bağlı proseslərdə yeni texnologiyaların tətbiqi ilə müşayiət olunur. Bu problemlərlə bağlı yüzlərlə beynəlxalq, regional və milli proqramlar, direktiv sənədlər qəbul edilmişdir və icra edilir. Bu sahədə Azərbaycan da istisna deyildir. Respublikamızda hələ 1998-ci ildə bu barədə xüsusi *"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında"* Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanun 6 fəsil, 21 maddədən ibarətdir. Qanunda cəmiyyətin informasiyalaşdırması və bu proseslə bağlı kardinal istiqamətlər müəyyənləşdirmiş, bir sıra məsələlər şərh edilmiş, ilk dəfə olaraq bu məsələ ilə bağlı terminoloji sistem təsbit edilmişdir [3, S.3]. Qanununda kitabxanalar informasiya ehtiyatlarının əsas bazası kimi birinci yerdə göstərilmişdir.

Qanunun 1-ci fəslinin əsas anlayışlar adlanan 2-ci maddəsində deyilir: "İnformasiya ehtiyatları - informasiya sistemlərində (kitabxanalarda, arxivlərdə, fondlarda, məlumat banklarında və s.) olan sənədlər və sənəd massivləri, habelə ayrıca mövcud olan sənədlər və onların massivləri" hesab edilir [3, S.1]. Buradan da göründüyü kimi kitabxanalar ölkə informasiya ehtiyatlarını təşkil edən müxtəlif informasiya idarə və müəssisələri içərisində birinci yerdə durur. Respublika qanunvericilik orqanı tərəfindən eyni ildə qəbul olunmuş iki müxtəlif qanunda kitabxanaların bir yerdə mədəniyyət təsisatlarının digər qanunda informasiya ehtiyatlarının əsasını təşkil edən idarələr kimi birinci yerdə qeyd olunması faktı kitabxanaların müasir sosial funksiyalarının qanunla təsbiti onun obyektivliyini və qanunauyğunluğunu əks etdirir. Məhz kitabxanaların bu iki əsas

funksiyaları hər bir ölkənin ictimai, siyasi quruluşundan və onun mahiyyətindən asılı olmayaraq kitabxana işi haqqında qəbul edilmiş qanunlarında mədəniyyət və informasiya funksiyaları dominantlıq təşkil edir. Bütün bu faktlar bir daha cəmiyyətin sosial tərəqqisində kitabxanaların rolunun daim artdığını göstərir və ona görə də onun, cəmiyyətin inkişaf istiqamətinə və tələbatına uyğun qurulması üçün hər bir ölkədə, o cümlədən Azərbaycanda kitabxana işini tənzimləyən qanunlar qəbul edilir.

Ölkədə ictimai fəaliyyətin bütünlükdə, eləcə də onun ayrı-ayrı sahələrində işlərin əsaslarının qurulması, tənzimlənərək inkişaf etdirilməsi, idarə edilməsi üçün istifadə edilən rəhbər, direktiv sənədlər sistemi hər bir ölkədə onun fərdi xüsusiyyətlərindən asılı olaraq lokal şəkildə (hər bir ölkənin spesifikasından asılı olaraq) formalaşır və inkişaf edir. Bu fikir sözün tam mənasında kitabxana fəaliyyətinə də aid edilir.

1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində ölkəmizin tarixində ilk dəfə olaraq kitabxana işi sahəsində dövlət siyasətinin əsasını təşkil edən *"Kitabxana işi haqqında"* Azərbaycan Respublikasının Qanununu qəbul edildi. Qanun 29 dekabr 1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış və həmin gündən qüvvəyə minmişdir. Həmçinin dövlət başçısı *""Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə"* 12 mart 1999-cu ildə fərman imzalamış, qanunun ayrı-ayrı maddələrinin yerinə yetirilməsinə cavabdeh olan dövlət orqanları müəyyənləşdirilmişdir.

Qanun cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına, ən müasir tələblərə cavab verən bilik səviyyəsinin yüksəldilməsinə fəal yardım göstərir, çünki o, kitabxanaların öz funksiyalarını, o cümlədən informasiya funksiyalarını həyata keçirmələri üçün, kitabxana işini keyfiyyətcə yeniləmək və yaxşılaşdırmaq üçün möhkəm hüquqi əsas yaradır. Burada başlıca diqqət həmin sahədəki prinsiplərin qismən dəyişdirilməsinə deyil, yeni iqtisadi və siyasi sistem şəraitində onların köklü surətdə yenidən nəzərdən keçirilməsinə və yenidən formalaşdırılmasına yönəldilmişdir [4, S.85].

Bu sənəd kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdınlması və mühafizəsi üçün zəruri olan tələbləri, kitabxanalann maliyyə mənbələrini, onların yaradılması və fəaliyyəti qaydalarını, vətəndaşlann kitab- xanalardan istifadə zamanı hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir.

Respublikamızda kitabxana işinə dair dövlət siyasəti, bu işlə bağlı hazırlanan bütün qərarlar, rəsmi dövlət sənədləri və sərəncamlar, kitabxana işinin inkişaf konsepsiyası, ayrı-ayrı nazirlik, idarə və müəssisələrin kitabxana fəaliyyəti bu qanuna əsaslanmalı, onun əsas prinsipləri və müddəaları yerinə yetirilməlidir. Respublikamızda kitabxana şəbəkələri olan bütün nazirlik, idarə və müəssisələr, ictimai təşkilatlar, ümumiyyətlə, kitabxana ictimaiyyəti, bütün ziyalılarımız bu qanunun tələblərinin yerinə yetirilməsində yaxından iştirak etməlidirlər.

*"Kitabxana işi haqqında"* Azərbaycan Respublikasının Qanunu 6 fəsil 34 maddədən ibarətdir.



Qanun müasir Azərbaycan kitabxana işinin təcrübəsinə, onun perspektiv inkişafına və dünya təcrübəsinə əsaslanaraq kitabxanaların 5 sosial funksiyası: elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəyyənləşdirilmişdir. Göstərilən funksiyaların yerinə yetirilməsi kitabxanaları cəmiyyətin sosial həyatı ilə bilavasitə əlaqələndirməklə cəmiyyətdə tutduqları yeri və vəzifələrini müəyyənləşdirir, onları informasiyalaşdırılmış cəmiyyətin əsas atributlarından birinə, insanların sənəd-informasiya təminatının əsas bazasına çevirir. Beləliklə, kitabxanalar hər şeydən əvvəl elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə sahəsində dövlət siyasətinin obyekti kimi xarakterizə olunur.

Qanunun ən mühüm elmi-metodoloji cəhətini kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsip və vəzifələrini olduqca düzgün və hərtərəfli müəyyənləşdirməsi təşkil edir. Burada əsas prinsiplər kimi kitabxanaların, bütün əhalinin istifadəsi üçün ümumaçıq olması, onlara dövlət qayğısı və dövlət tərəfindən maliyyələşdirilməsi prinsipləri ön plana çəkilir ki, bu da kitabxanaların gələcək inkişafı üçün şərait yaratmaqla, onların ən demokratik kitabxana-informasiya sisteminə çevrilməsini təmin edir.

Qanunun 3-cü maddəsində kitabxana işi sahəsində dövlətin əsas vəzifələri müəyyənləşdirilmiş, onun həyata keçirilməsi yolları göstərilmiş, 2-ci fəslində isə kitabxana sistemi, onun təşkili, tərkibi əsaslandırılmış, respublikamızda olan bütün kitabxana şəbəkələri, onların tabeçilik prinsipləri, dövlət və qeyri - dövlət kitabxanaları haqqında məlumat verilmiş, statusları müəyyənləşdirilmişdir.

Sənəddə xalqımızın milli sərvəti olan kitabxana fondlarının yaradılması, komplektləşdirilməsi, qorunub saxlanılması, kitabxana fondlarının növləri, təchiz olunması, kitabxanaların mübadilə fondları, depozitar fondlar, dövlət kitabxana fondlarının uçotu, mühafizəsi və kitabxanaların pulsuz məcburi nüsxələrlə təchiz edilməsi məsələləri öz hüquqi həllini tapmışdır.

Dövlət kitabxana fondlarının yaradılması və dövlət tərəfindən maliyyələşdirilməsinin qanunda öz əksini tapması olduqca demokratik bir hal olmaqla kitabxana işinə dövlət qayğısının təzahürüdür. Qanunda həmçinin ayrı-ayrı nazirlik, idarə və müəssisələrin, kitabxana şəbəkələrinin həmin nazirlik, idarə və müəssisələrin vəsaiti hesabına komplektləşdirilməsi nəzərdə tutulmuşdur.

*"Kitabxana işi haqqında"* Azərbaycan Respublikası Qanununun ən böyük əhəmiyyət kəsb edən maddələrindən biri *"Kitabxanaların pulsuz məcburi nüsxələrlə təchizatı"* adlı 15-ci maddəsidir. Dünyanın bütün ölkələrində mühüm dövlət və ümummilli əhəmiyyət kəsb edən kitabxanalar pulsuz məcburi nüsxələr alır. Nəşr olunan kitablar heç bir bürokratik çətinlik olmadan kitabxanaların fonduna daxil olur. Beləliklə də, dövlət kitabxana fondlarının tamlığı təmin olunur. Bazar iqtisadiyyatı şəraitində nəşriyyatların əksəriyyəti özəlləşmişdir və onlar bazarın tələbatına müvafiq olaraq öz istədikləri kitabları çap edirlər. Belə kitabların uçotunu aparan, onları toplayıb, mühafizə edən heç bir müəssisə yoxdur. Bu baxımdan qanunun bu maddəsi çox mühüm əhəmiyyət kəsb etməklə, Azərbaycan kitabının qorunub saxlanılmasını təmin etməyə yönəlmişdir.

Əhaliyə kitabxana xidmətini daha da təkmilləşdirmək, kitabxanaların beynəlxalq əlaqələrini günün tələbləri səviyyəsində qurmaq üçün çox ciddi vəzifələri həll edə bilən kitabxanaların mübadilə fondlarının yaradılması məsələləri də qanunda tövsiyə edilmişdir.

Qanunun V fəsli kitabxana işinin idarə olunması məsələlərinə özündə əks etdirir. Burada qeyd olunur ki, Azərbaycan Respublikasında kitabxanalar müvafiq icra orqanları tərəfindən idarə edilir. Müvafiq icra orqanları öz işində dövlətin kitabxana işi sahəsindəki siyasətini rəhbər tutur. Həmçinin kitabxana işinin idarə olunmasında ictimaiyyətin iştirakına da xüsusi diqqət yetirilir. İctimai birliklərin, kitabxana şuralarının, assosiasiyaların, kitabxanaların idarə olunmasında iştirakı ön plana çəkilir, kitabxana xidmətinin təşkilində onların fəaliyyəti dəstəklənir. Eyni zamanda kitabxana işinin elmi-metodik təminatına xüsusi diqqət yetirilməklə metodik mərkəzlər və onların vəzifələri də müəyyənləşdirilir. İlk dəfə olaraq bu qanunda yüksəkixtisaslı, ixtisas təhsilli mütəxəssislərin hazırlanması və yerləşdirilməsi dövlət əhəmiyyətli bir iş hesab edilməklə peşə-ixtisas təhsilli mütəxəssislərə kitabxanalarda işə düzələrkən üstünlük verilməsi əsaslandırılır.

Azərbaycan Respublikasının bazar iqtisadiyyatı şəraitində kitabxanaların ən mühüm problemi maliyyələşdirmə problemidir. Sevindirici haldır ki, hüquqi, dünyəvi, demokratik Azərbaycan dövləti bu mühüm problemi çox yüksək şəkildə həll etmiş, dövlət kitabxanalarının maliyyələşdirilməsini öz üzərinə götürmüşdür. Bu tədbir müstəqil Azərbaycan dövlətinin ən böyük mədəni nailiyyətlərindən biridir.

Qanununda öz əksini tapmış ən mühüm, dövlət əhəmiyyətinə malik müddüalardan biri də *"Kitabxana işçilərinin sosial müdafiəsi"* adlı 34-cü maddəsidir ki, burada deyilir:

*"Dövlət kitabxana işçilərinin sosial müdafiəsinə təminat verir. Kitabxana işçilərinin əmək haqları elm və təhsil sahələri işçilərinin əmək haqlarından aşağı olmamalıdır;*

*Kitabxanaların statusu, spesifik xüsusiyyətləri nəzərə alınmaqla, işçilərə əmək haqqından əlavə digər ödənişlər tətbiq edilə bilər;*

*Müvafiq icra hakimiyyəti orqanları, müəssisə, idarə və təşkilatlar öz tabeçiliyində olan kitabxanaların işçilərinə əlavə kompensasiyalar müəyyən edə bilərlər".*

Beləliklə, göstərilən müddəalar Azərbaycan kitabxana işçilərinə dövlət qayğısının nəticəsidir və Azərbaycan kitabxanaçıları bu qayğını böyük minnətdarlıq hissi ilə qəbul edirlər.

Nəhayət, qanunun son maddəsində göstərilir ki: *"Bu qanunun pozulmasında təqsirli olan hüquqi və fiziki şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar".* Məhz bu maddə qanunun qüsursuz olaraq respublikamızın ərazisində tətbiqini təmin edir.

Müstəqil Azərbaycan dövlətinin kitabxana işi haqqında qəbul etdiyi ilk qanun son dövrlərdə bazar iqtisadiyyatı şəraitində cəmiyyətdə baş verən bütün dəyişikliklərə, yeniliklərə əsaslanmaqla, əsasən cəmiyyətin mənəvi həyatında baş



verən qanunauyğunluqları özündə əks etdirir, cəmiyyətin qarşıya qoyduğu tələblərə cavab verir.

**Nəticə.**

Azərbaycanda dövlət kitabxana siyasətinin qanunvericilik təminatı sisteminə daxil olan normativ hüquqi sənədlərin elmi-metodoloji strukturunun təhlili göstərir ki, Azərbaycan kitabxanalarını dünya standartları səviyyəsinə çatdırmaq məqsədilə qəbul olunmuş bu sənədlərin tətbiqi zamanın yeni tələbləri nəzərə alınaraq davam etdirilməlidir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası : 24 avqust 2002-ci il tarixdə olan dəyişiklik və əlavələrlə. - Bakı : Qanun, 2005. - 64 s.
2. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu// "Ədəbiyyat" qəzeti.- 1998.- 24 aprel.
3. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // "Azərbaycan" qəzeti. –
4. 1999. – 14 mart.
5. Abbasov N.Ə. Mədəniyyət siyasəti və mənəvi dəyərlər. Bakı, 2009. – 444 s.
6. İsmayılov X. İ. Kitabxana işinin təşkili və idarə edilməsi. Dərslik. – Bakı, 2010. – 328 s.
7. Xələfov.A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. – Bakı, 2006. – 312 s.
8. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: dərslik. 3 hissədə. III hissə. – Bakı, 2003. – 314 s.
9. Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf
10. istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar). – Bakı, 2006. – 106 s.
11. 9. Xələfov A. Kitabxana sahəsi dovlət qayğısı ilə əhatə olunmuşdur // Azərbaycan. – 2007. – 24 aprel. – S.5.


*Məqalə BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının aprel 2015-ci ili 16 tarixli 7 saylı iclasında müzakirə edilmiş və çapa məsləhət görülmüşdür.*

*Rəyçilər: filologiya üzrə elmlər doktoru A.Əliyeva-Kəngərli, prof. X.İ.İsmayılov.*